**Cəfərov, M**. Əsgərini xilas etdi / Müşfiq Cəfərov // Xalq qəzeti. - 2025. - 5 oktyabr. - **№ 214**. - S. 9.

**Özü isə şəhid olan Vidadi Əhmədov 1979-cu il iyulun 12-də Salyanda dünyaya göz açıb. Şəhərdəki 1 saylı orta məktəbi bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Murovdağda hərbi xidmət keçib.**

Gənc zabit müxtəlif vaxtlarda İraqda sülhməramlı qüvvələrin sıralarında, Müdafiə Nazirliyinin Təlim – Tədris Mərkəzində bölük komandiri kimi qulluq edib. 2011-2014-cü illərdə Ali Hərbi Məktəbdə müəllim işləyib. 2014-2016-cı illərdə isə Tərtərdəki hərbi hissələrin birində komandirin şəxsi heyətlə iş üzrə müavini olub. Aprel döyüşlərində iştirak etdikdən sonra 20 il qüsursuz xidmətinə görə ehtiyata buraxılıb.

Vətən müharibəsi başlayandan sonra könüllü döyüşlərə qatılıb. Füzuli istiqamətində gedən ağır savaşların iştirakçısı olub. Belə döyüşlərin birində top mərmisinin partlayışı nəticəsində şəhadətə yüksəlib.

Vidadi Əhmədovun həyat yoldaşı Zəhra xanım deyir: - Vidadi vətənpərvər, Vətəni canından artıq istəyən hərbçi idi. Uşaqları da vətənpərvərlik ruhunda tərbiyə edirdi. Ətrafda baş verənlərə çox soyuqqanlı görünməyə çalışsa da, bir dəfə evə gəlib hönkür-hönkür ağlamışdı. Dostu general Polad Həşimov şəhid olmuşdu o gün. Oktyabr ayının 5-də zəng vurub dedi ki, sizinlə bir müddət əlaqə saxlaya bilməyəcəyəm, narahat olmayın – irəliyə gedirik...

Həmişə deyirdi ki, qorxma, düşmən məni nə üzbəüz, nə də snayperlə vura bilməz. Yalnız göydən yanıma nəsə atılsa, o an həlak ola bilərəm. Elə belə də oldu...Vidadi düşmənin top atəşi nəticəsində oktyabr ayının 8-də şəhid oldu.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Vidadi Əhmədov ölümündən sonra 3-cü dərəcəli “Rəşadət” ordeni, “Füzulinin azad olunmasına görə”, “Vətən uğrunda”, “İgidliyə görə” medalları ilə təltif edilib.